# AZƏRBAYCAN XALQINA QARŞI ERMƏNİ VƏHŞİLİKLƏRİNİ BRİTANİYA KİTABXANASININ ARXİV SƏNƏDLƏRİ DƏ TƏSDİQ EDİR

## Nigar Gözəlovanın "Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya Kitabxanasının arxiv sənədlərində (1918-1920) kitabına

## ÖN SÖZ

Tarix İnstitutunun dünyanın müxtəlif ölkələrindən toplayıb gətirdiyi çoxsaylı arxiv sənədləri ermənilərin müxtəlif tarixi dövrlərdə Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı vəhşiliklərini birmənalı şəkildə təsdiq edir.

Tarix üzrə fəlsəfə doktoru Nigar Gözəlovanın Britaniya Kitabxanasından əldə etdiyi olduqca qiymətli sənədlər əsasında yazdığı "Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya Kitabxanasının Arxiv sənədlərində (1918-1920)" kitabı bəhs olunan problemin araşdırılması işində irəliyə doğru atılmış mühüm ad-

dımdır. Müəllifin yeni əsəri İnstitutun bu istiqamətdə əldə etdiyi uğurları yeni faktlarla zənginləşdirir.

Nigar Gözəlovanın öz tədqiqatına əlavə etdiyi yeni sənədlər xüsusilə diqqəti cəlb edir. Bu sənədlər XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan tarixinin indiyədək öyrənilməmiş və xüsusi məqsədlərlə saxtalaşdırılmış bir çox problemlərinin doğru-düzgün araşdırılmasına geniş imkanlar yaradır. Sənədlərin böyük əksəriyyətindəki faktlar xüsusilə ona görə qiymətlidir ki, onlar tarix elmimiz üçün yenidir. Bu məlumatlar XIX-XX əsrlər tariximizin bir çox mühüm problemlərinə yeni baxış tələb edir.

Britaniya Kitabxanası arxiv sənədlərinin Azərbaycan tarix elmi üçün ən mühüm əhəmiyyəti bundan ibarətdir ki, həmin sənədlərdəki fakt məlumatları məhz Britaniya hökumətinin 1918-1920-ci illərdə Cənubi Qafqazda fəaliyyət göstərmiş rəsmi nümayəndələrinin verdikləri məlumatlardır. Və bu məlumatlar təsdiq edir ki, Azərbaycan Xalq Cümhuriyyətinin xoş məram nümayiş etdirərək 1918-ci il mayın 29-da qədim Azərbaycan şəhəri olan İrəvanı ətrafındakı torpaqlarla birlikdə ermənilərə verməsindən sonra bu ərazidə yenicə yaranmış Ararat (Ermənistan) Respublikası dərhal Azərbaycan xalqına qarşı dövlət səviyyəsində soyqırımlarına başladı. Azərbaycan ərazisində yaranmış Ararat Respublikasının yeritdiyi dövlət siyasəti nəticəsində bu torpaqların aborigen

əhalisi olan Azərbaycan türklərinin uşaqlara, qadınlara, qocalara aman verilmədən kütləvi surətdə məhv edilməsinə başlandı. Çox keçmədən nizami erməni silahlı qüvvələri Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə – Zəngəzura, Naxçıvana və Qarabağa təcavüz etdi. Ararat (Ermənistan) Respublikasının silahlı qüvvələri Azərbaycan Xalq Cümhuriyyətinin ərazisində də soyqırımlarına və işğallara başladı. Zəngəzurda, Dərələyəzdə, Qarabağda 57 Azərbaycan kəndi yerlə-yeksan olundu, əhalisi isə məhv edildi.[1]

Cənubi Qafqazdakı Britaniya missiyasının nümayəndələri öz hökumətlərinə göndərdikləri məlumatlarda erməni silahlı qüvvələrinin dinc azərbaycanlı əhaliyə tarixdə misli görünməmiş vəhşiliklə divan tutduqlarını yazırdılar. Məsələn, O.Uordropun 11 dekabr 1919-cu il tarixli məlumatında göstərilirdi ki, erməni silahlı qüvvələri həmin ilin 26 noyabrında azərbaycanlılar yaşayan Oxçu mahalının kişi cinsindən olan bütün gənc sakinlərini bir yerə toplayaraq dinamitlə partladıb məhv etdilər, qalanlarını isə qadınlar və uşaqlarla birlikdə məscidə doldurub qırdılar.[2]

---

[1] Bax: Cənab Qrandinin 50 saylı məlumatı (25 yanvar, 1920); Cənab O.Uordropun 196 saylı məlumatı (11 dekabr, 1919); Cənab O.Uordropun 173 saylı məlumatı (3 dekabr,1919); Cənab O.Uordropun 179 saylı məlumatı (4 dekabr, 1919).

[2] Cənab O.Uordropun 196 saylı məlumatı (11 dekabr, 1919)

Nigar Gözəlovanın istifadə etdiyi və onun tədqiqatına əlavə olunmuş sənədlərdə erməni silahlı qüvvələrinin Naxçıvanda törətdikləri vəhşiliklər barədə də qiymətli məlumatlar vardır. Məsələn, 25 yanvar 1919-cu il tarixli memorandumda göstərilir ki, ermənilər Naxçıvanda da dinc əhaliyə hücum edir, dəhşətli vəhşiliklər törədirdilər. Çarəsiz qalan Naxçıvan camaatı kömək üçün İrana müraciət edir, himayə olunmalarını xahiş edirdilər. Sənəddə göstərilir ki, **əhalisinin böyük hissəsi müsəlman olan** bu vilayətlərə ermənilərin təcavüzü yerli əhalinin böyük narazılıqlarına səbəb olur ki, bunun da fəlakətli nəticələri ola bilər.[3]

Yeri gəlmişkən, 1918-1920-ci illərdə Cənubi Qafqaza göndərilmiş Britaniya missiyasının nümayəndələri əvvəllər ermənilərə rəğbətlə yanaşsalar da, vəziyyətlə yerində tanış olduqdan sonra mövqelərini dəyişməyə başlamışdılar. Məsələn, Uordropun 1919-cu il noyabrın 16-da lord Kerzona göndərdiyi məlumatda yazılırdı: **«Zəngəzur Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və həmişə ona məxsus olmuşdur».**[4]

Nigar Gözəlovanın tədqiqatında və kitabına əlavə olunmuş sənədlərdə bir tarixi həqiqət də öz əksini tapmışdır. Məlum olduğu kimi, Çar Rusiyası və bolşevik rejimi özlərinin Cənubi Qafqaz siyasətində həmişə

---

[3] İran hökumətinin memorandumu (25 yanvar, 1919).
[4] Cənab O.Uordropun «açıq mətnli» teleqramı (18 noyabr, 1919).

azərbaycanlılara qarşı ermənilərdən istifadə etmişdir. Bu baxımdan Uordropun 1920-ci il aprelin 1-də, yəni sovet qoşunlarının Azərbaycana müdaxiləsi ərəfəsində, daha doğrusu 1920-ci ilin 28 aprel işğalı ərəfəsində Londona göndərdiyi bir məlumat çox maraqlıdır. Britaniya missiyasının nümayəndəsi öz hökumətinə yazırdı ki, **«mənə məlumdur ki, hazırda Petrovskda olan bolşevik qoşunları əsasən ermənilərdən ibarətdir».**[5] Britaniya rəsmisinin bu məlumatı tarixi həqiqətdir. Doğrudan da 1920-ci ilin 28 aprelində bütün beynəlxalq hüquq normalarını kobudcasına pozub Azərbaycana müdaxilə edən, Azərbaycan Xalq Cümhuriyyətini aradan qaldırıb xalqımıza divan tutan XI Qırmızı Ordunun tərkibində erməni millətindən olan çoxsaylı zabit və əskər vardı.[6]

Beləliklə Nigar Gözəlovanın "Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya Kitabxanasının Arxiv sənədlərində (1918-1920)" adlı əsəri və həmin tədqiqata əlavə edilən arxiv sənədləri də sübut edir ki,

---

[5] Cənab O.Uordropun məlumatı (1 aprel, 1920)

[6] Çar Rusiyası və bolşevik rejimi XIX əsrin əvvəllərində Şimali Azərbaycanın işğalından başlayaraq bütün tarixi dövrlərdə bu çirkin metoddan istifadə etmişdir. 1920-ci ilin 28 aprel işğalından sonra 1937-ci il repressiyalarında və 1990-cı ilin 20 Yanvar qırğınında da bu çirkin əməldən istifadə olundu. Kremlin Qorbaçov və Yeltsin rejimi də Azərbaycanın 20 faizdən çox ərazisinin işğalında və 1 milyon nəfərdən çox azərbaycanlının öz doğma vətənində qaçqına çevrilməsində eyni metoda əl atdı.

Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəllərini əhatə edən tarixinin bir çox məsələləri, xüsusilə 1917-1920-ci illər tarixi təhriflərdən, saxtalaşdırmalardan təmizlənməli və yenidən yazılmalıdır. Bu gərəkli işdə oxuculara təqdim olunan hazırkı tədqiqatın və sənədlərin mühüm rol oynayacağına şübhə etmirəm. Bununla yanaşı, t.ü.f.d. Nigar Gözəlovanın Britaniya kitabxanasından tarixi keçmişimizə dair həmin qiymətli sənədləri toplamaq üçün böyük əmək sərf etdiyini də oxuculara yetirməyi özümə borc bilirəm.

**Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı laureatı*

# AZƏRBAYCANIN TÜRK-MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI BRİTANİYA KİTABXANASININ ARXİV SƏNƏDLƏRİNDƏ (1918-1920)

1918-1920-ci illər Azərbaycan xalqının tarixində bir-birini sürətlə əvəz etmiş, hər biri xalqımız üçün taleyüklü, əlamətdar və faciəli hadisələrlə əlaqədar olmuş ən əhəmiyyətli dövrlərdəndir. Şübhəsizdir ki, Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu 1918-ci ilin 28 may tarixi bu hadisələrin zirvə məqamıdır. Sonrakı mühüm tarixi hadisələr (1918-ci ilin sentyabr ayının 15-də Bakı şəhərinin birləşmiş Osmanlı-Azərbaycan hərbi qüvvələri tərəfindən azad edilməsi, Azərbaycan Cümhuriyyəti hökumətinin Bakı şəhərinə köçməsi, 1918-ci ilin dekabr ayının 7-də Azərbaycan Cümhuriyyəti parlamentinin təsis edilməsi və s.) bütün müsəlman Şərqində ilk demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin təməlini qoydu. Lakin nəzərə alınmalıdır ki, 1918-1920-ci illərin əlamətdar hadisələrindən öncə onlardan heç də az əhəmiyyəti olmayan qanlı hadisələr də baş vermiş, bu hadisələr Azərbaycan xalqı üçün faciəyə çevrilmiş, onun varlığını şübhə altına almışdı.

1991-ci ilin oktyabrın 18-də Azərbaycan Respublikası dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra xalqın tarixinin obyektiv mənzərəsini yaratmaq üçün geniş imkanlar yaranmışdır. Yaxın zamanlaradək məx-

filəşdirilmiş, geniş ictimaiyyət üçün qadağan olunmuş faktlar hal-hazırda üzə çıxarılır, vaxtilə təhrif edilmiş tarixi hadisələr obyektiv, həqiqi qiymətini alır. 1918-1920-ci illərdə Azərbaycan xalqının soyqırımı bu baxımdan Vətən tarix elmində zəif tədqiq edilmiş problemlərdəndir.

1918-1920-ci illərin qanlı hadisələrini əks etdirən ən mühüm mənbələr sırasında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin və nazirliklərinin kargüzarlıq sənədləri, yerli hakimiyyət orqanları təmsilçilərinin sənədləri, AXC hökuməti yanında Fövqəladə Təhqiqat komissiyasının materialları vardır. Hal-hazırda həmin arxiv materiallarının böyük qismi artıq geniş ictimaiyyət üçün açılmışdır. Bu arxiv materialları ayrı-ayrı toplularda nəşr olunmuş, elektron kitabxanalarda yerləşdirilmişdir.[1]

Lakin biz bu tədqiqat işində həmin qanlı hadisələrə dair faktları bilavasitə Britaniya arxiv sənədləri əsasında təqdim etmək üçün göstərilən dəyərli materiallara istinad etməkdən imtina etməli olduq. Təqdim olunan monoqrafiyada biz Britaniya kitabxanasının fondlarından, India

---

[1] Азербайджанская Демократическая Республика. Внешняя политика (Документы и материалы). Баку: 1998; Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Составитель: д.и.н. Солмаз Рустамова-Тогиди. Баку: 2010; Март 1918 г. Баку, Азербайджанские погромы в документах. Составитель: д.и.н. Солмаз Рустамова-Тогиди. Баку: 2009; Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920). Ankara, 2001; Аслан Халилов. Геноцид против мусульманского населения Закавказья в исторических источниках. Баку: 2000 və s.

Office Records arxivlərinin materiallarının, Siyasi və Məxfi şöbənin hesabatlarının (Political and Secret Department Records (L/P&S)) saxlanıldığı «Asiya, Sakit okean və Afrika» kolleksiyasından (Asia, Pacific and Africa Collections) əxz olunmuş sənədlərdən istifadə etməklə 1918-1920-ci illərdə Ermənistanın Azərbaycan Cümhuriyyətinə qarşı hərbi təcavüzünün İrəvan və Gəncə (Yelizavetpol) quberniyalarının ərazilərində Azərbaycan əhalisinin soyqırımına gətirib çıxarmış bəzi səbəb və nəticələrini nəzərdən keçirmək məqsədi güdmüşük. Həmin sənədlər Azərbaycan tarixinin indiyədək öyrənilməmiş, yaxud xüsusi məqsədlərlə saxtalaşdırılmış məsələlərinin obyektiv şəkildə araşdırılması üçün geniş imkanlar açır. Bu sənədlərin ilk dəfə elmi dövriyyəyə daxil edilməsi həmin qaynaqlarda olan məlumatların dəyərini daha da artırır. Bu məlumatlar Azərbaycan xalqının XX əsr tarixinin bir çox mühüm problemlərinin öyrənilməsinə yeni yanaşma tərzini tələb edir.

# Böyük Britaniyanın Cənub Qafqaz siyasətində erməni amili (1917-ci il dekabr – 1918-ci il avqust ayları)

XX əsrin əvvəllərində də dünya siyasətində aparıcı, strateji mövqelərə, malik olan Cənubi Qafqazda ciddi maraqlar güdən Böyük Britaniya mühüm subyekt kimi bölgədə baş verən hadisələri diqqətlə izləyirdi. Bu səbəbdən, Britaniya kitabxanasının arxivlərində Böyük Britaniya imperiyasının yüksək rütbəli məmurları və səlahiyyətli şəxsləri tərəfindən imzalanmış xeyli «tam məxfi» işarəli raport, məktub vardır. Həmin raportlarda, daxili yazışmalarda Britaniya təmsilçilərinin Cənubi Qafqazda baş vermiş hadisə və proseslər haqqında gerçəkliklərə uyğun dəyərləndirmələri öz əksini tapmışdır. Bu məlumatlar geniş ictimaiyyət üçün nəzərdə tutulmurdu. «Tam məxfi» işarəsi ilə saxlanan bu gizli sənədlər, ali hakimiyyət nümayəndələrinin məhdud dairəsi üçün nəzərdə tutulmuşdu.

Birinci dünya müharibəsinin başlanması, xüsusilə 1917-ci ilin Rusiya fevral inqilabından sonra Rusiya imperiyasının dağılması prosesi ilə bağlı olaraq Qafqazda rəqabət apırmış böyük dövlətlər arasında münasibətlər xeyli kəskinləşdi. 1917-ci ilin dekabr ayında süqut etmiş Rusiya imperiyasının ərazisinin nüfuz dairələrinə bölüşdürülməsi haqqında gizli İngiltərə-Fransa sazişi imzalanmışdı. Həmin sazişə görə, Cənub-Şərqi Rusiya Böyük Britaniya «qəyyumluğu» dairəsinə dümüşdü. Həmin

ərazidə «sabitliyin və bolşevizmə qarşı əks-təsirin» təminatçısı kimi çıxış edən Böyük Britaniya bölgədəki mövqelərinin təsbit olunmasına yönəlmiş kompleks tədbirlər həyata keçirirdi. Azərbaycan ərazisinin Böyük Britaniya «qəyyumluğu dairəsində» olan zonaya daxil edilməsi bütün Qafqaz-Xəzər bölgəsində ingilislərin hərbi-siyasi iştirakını gücləndirmişdi.[2]

Böyük Britaniyanın əski Rusiya imperiyasının cənubunda baş verən hadisələrə qarışmasına dair ilkin planları Xəzər dənizi vasitəsilə onun İran ərazisinə müdaxiləsi üçün Azərbaycan ərazisindən əməliyyat meydanı kimi istifadə etmək niyyətləri ilə bağlı idi. 1918-ci ilin əvvəllərində məhz İranda iki ingilis hərbi missiyası təşkil olunmuşdu. Həmin missiyalardan biri Zakaspi ərazisinə (Xəzər dənizinin şərq sahilinə, Türküstana –N.G.) müdaxilə etmək üçün nəzərdə tutulmuşdu. Missiya Məşhəddə qərarlaşmışdı. Digər missiya Qəzvində qərarlaşmış, Qafqaza və Xəzər dənizi bölgəsinə istiqamətlənmişdi. General V.Mallesonun başçılıq etdiyi birinci missiya Böyük Britaniya ordusunun Hindistandakı rəhbərliyinə tabe idi. London rəsmi dairələrinin nəzarəti altında olan və Mesopotamiya cəbhəsi qoşunları qrupuna istinad edən ikinci missiyaya isə general L.Denstervil başçılıq edirdi.

1918-ci ilin yanvar ayın 4-də Böyük Britaniya XİN-nə göndərilmiş məxfi məlumatda ingilislərin Qafqazdakı strateji planları açıq şəkildə nəzərə çarpır. Ser P.Koksun

---

[2] Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века, с. 12.

bu məlumatında qeyd edilirdi: «Qafqazda müsəlmanlar arasında təbliğatın sxemi sadədir. Biz elə etməliyik ki, ərəblərin müqəddəs yerlərin türk (Osmanlı -N.G.) əsarətindən qurtulması uğrunda mübarizəsində Ərəbistan kralı Qafqaz və Krım müsəlmanlarından yardım almaq üçün Qafqaza nüfuzlu nümayəndə heyəti göndərsin, onları müharibəni davam etdirməyə təşviq etsin və maksimal sayda türklərin Qafqaz cəbhəsində saxlanılmasına nail olsun». [3]

Böyük Britaniya hökuməti Qafqaza müdaxilə ərəfəsində burada yaşayan xristianlara, xüsusilə ermənilərə böyük ümidlər bəsləyirdi. İngilislər Osmanlı ordusunun Qafqaza yürüşünün qarşısının alınmasında onlara bel bağlayırdı. Öz növbəsində erməni siyasi xadimləri ingilispərəst təbliğat xəttini yeridirdilər. Ona görə də 1918-ci ilin fevral ayının sonunda Qafqazın müsəlman qəzaları ingilis qoşunlarının bölgə ərazisinə müdaxiləsinə etiraz əlaməti olaraq Zaqafqaziya (Cənubi Qafqaz) Seyminə müraciət edərək ingilis nümayəndələri ilə danışıqları dayandırmağı tələb etdilər. [4]

Bu məqamda kapitan Noel 22 yanvar 1918-ci il tarixli məlumatında Azərbaycanın şimal qismində ingilislərə münasibətin pisləşməsi haqqında bəhs edirdi: «Mən

---

[3] Decipher from Sir P. Cox (January 3, 1918) //Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.183; Гасанлы Дж. Мартовский погром в Баку и геноцид азербайджанцев.

[4] Гасанлы Дж. Мартовский погром в Баку и геноцид азербайджанцев.

6 həftə öncə orada olarkən tatar (azərbaycanlı – N.G.) icmasının rəhbərləri bizə açıq şəkildə dostyana münasibət bəsləyirdilər. Lakin hal-hazırda, Bakıya qayıtdıqdan sonra mənə məlum oldu ki, onların davranışında şübhəliliyə və çətinliklə gizlədilən düşmənçiliyə doğru dəyişiklik baş vermişdir. Bu, aşağıdakılarla izah olunur: 1) Bizim erməni mənafelərinə üstünlük verməyimiz haqqında rəy geniş yayılmışdır; 2) Ermənilər bu təəssüratı gücləndirir və ondan sərbəst şəkildə öz xeyirləri üçün suiistifadə edirlər; 3) Erməni milli alayının təşkil olunmasına verilməsi. Güman edirəm ki, bu, rus baş qərargahının erməniləri dəstəklədiyimiz və müsəlmanlara güvənmədiyimiz haqqında görüşlərinə uyğundur. Fikrimizcə, bu siyasət yanlışdır və güman etmək olar ki, fəlakətə gətirib çıxaracaq. Müsəlmanların maraqları, onları qulaq ardına vurmağın imkansız olduğu qədər güclüdür. Xüsusilə rus ordusunun tezliklə dirçəlməsinə ümidlərin son dərəcə cüzi olduğu bir zamanda ... tatarlar (azərbaycanlılar – N.G.) Rusiyaya baxmayaraq, özlərinin milli hərbi bölmələrini təşkil edəcəklər, və daha yaxşı olar ki, bu, bizim himayəmiz altında baş versin».[5]

Beləliklə, Britaniya kitabxanasının arxiv sənədlərindən bəlli olur ki, bəhs etdiyimiz dövrdə ingilis hərbi rəhbərliyi dərk etməyə başlamışdı ki, ermənilərin dəstəklənməsi, onlara yardım göstərilməsi Böyük Britaniyanın

[5] Letter from Sir P. Cox to Foreign Office (January 25, 1918)//Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.178; Гасанлы Дж. Мартовский погром в Баку и геноцид азербайджанцев.

türk-müsəlman əhalisinə münasibətdə siyasətinə ağır zərbə vurur. 1918-ci ilin qanlı mart hadisələri ingilislərin bu qənaətini daha da möhkəmləndirdi. Məlumdur ki, həmin hadisələr zamanı bolşevik-daşnak silahlı birləşmələri Bakı quberniyasının müsəlman əhalisini soyqırıma məruz qoymuşdular. Hindistandakı Böyük Britaniya qoşunlarının baş komandanı Londona 20 iyul 1918-ci il tarixli məxfi məlumatında bu barədə aşağıdakıları qeyd etmişdi: «Ermənilər ingilislərin xüsusi himayəsi altında olmaları haqqında tatarlar (azərbaycanlılar – N.G.) arasında açıq şəkildə lovğalanmaqla ümumi işimizə böyük zərər yetirmişlər. Bu, britaniyalıların müsəlmanlara qarşı məqsədli siyasət yeritmələri barədə ziyanlı rəyin yaranmasına səbəb olmuşdur, halbuki ermənilər xeyli tatarı qətlə yetirmişlər».[6]

1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılmış Fövqəladə Təhqiqat komissiyasının məlumatlarına əsasən, 1918-ci ilin mart-aprel aylarında Bakıda və Bakı quberniyasının digər qəzalarında öldürülmüş müsəlmanların sayı 30 min nəfər idi. Britaniya qaynaqlarının məlumatlarına, o cümlədən Böyük Britaniya briqada generalı R.Qortonun 8 dekabr 1918-ci il tarixli məruzəsinə görə, 180 kənd dağıdılmış və xeyli tatar (azərbaycanlı – N.G.) qətlə yetirilmişdi.[7]

---

[6] Decipher from Commander-in Chief, India (July 20, 1918)//Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.169.

[7] Notes by brigade general R. Gorton (December 8, 1918) // Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.83.

Sənəddə həlak olanların sayı oxunmur, lakin hər bir kənddə hər ailədə 5 nəfərin yaşadığını nəzərə almaqla orta hesabla 25 ailənin yaşadığını təxmin etsək, o zaman azərbaycanlı qurbanların təqribi sayının 20 mindən olduğunu görərik.

İngilislərin Cənubi Qafqazda açıq hərbi müdaxiləsi rus qoşunlarının 1918-ci ilin yayının sonlarında İranın şimalından, Qafqaz cəbhəsinin İran sahəsindən çıxarılmasının dərhal ardınca başlanmışdı. 1918-ci ilin avqust ayının əvvəlində əvvəllər S.Şaumyanın sovet rejiminə müxalifətdə olmuş oyuncaq «Sentrokaspi diktaturası» hökumətinin dəvəti ilə Britaniya qoşunlarının Cənubi Qafqaza ilk silahlı müdaxiləsi cəhdi oldu. Avqust ayının əvvəlində general L.Denstervil hərbi qrupunun öncül dəstəsi Bakı limanına çıxarıldı. Avqust ayının 17-də isə generalın özü başda olmaqla 39-cu piyada briqadasının əsas qüvvələri Bakiya gəldilər. Böyük Britaniya hərbi hissələri «Sentrokaspi» hökumətinin qoşunları ilə birlikdə şəhəri Azərbaycan-Osmanlı ordusunun hücumundan müdafiə etmişdilər. Sentyabr ayının ortalarında isə Bakının Qafqaz İslam Ordusu tərəfindən azad ediləcəyinin labüdlüyünü anlamış ingilislər tələsik surətdə Ənzəli limanına qayıtdılar. L.Denstervilin hərbi qruplaşmasının qərargahı Bakıda ilk, qısamüddətli olmasından istifadə edərək gəmiləri, silahları və digər hərbi ləvazimatı ələ keçirmiş, Qafqazda gələcək hərbi əməliyyatların təchizatı üçün Ənzəli limanına yanacaq aparmışdı.[8]

[8] Daha ətraflı məlumat üçün bax: The Adventures of Dunsterforse. By: Dunsterville, L. C., London 1920.

1918-ci ilin oktyabr ayının 30-da bağlanmış Mudros barışıq sazişinin şərtlərinə görə, Osmanlı qoşunları Cənubi Qafqazı tərk etdilər. General L.Denstervil Bakıya geri çağırılmış, onun missiyası, Mesopotamiyadan gəlmiş yeni hərbi hissələr əsasında «Norperfors» («Şimali İran Qoşunu») adını almış yeni müdaxiləçi qrup yaradılmışdı. Həmin qrupa general Vilfred Tomson başçılıq edirdi.

# Azərbaycan xalqına qarşı soyqırımı Böyük Britaniyanın rəsmi sənədlərində (1918-ci ilin noyabr-1920-ci ilin aprel ayları)

Osmanlı qoşunları Azərbaycandan çıxarıldıqdan sonra 1918-ci ilin noyabr ayının 17-də V.Tomsonun başçılığı altında ingilis qoşunları Bakıya daxil oldular. V.Tomson Bakıya gəldiyi gündən etibarən şəhərdə hərbi vəziyyət rejimini tətbiq etdi, özünü Bakının general-qubernatoru elan etdi. İngilis qoşunları tezliklə bütün Cənubi Qafqazı işğal etdilər. Həmin dövrdə Cənubi Qafqazda 30 min ingilis əsgəri və zabiti cəmləşmişdi. İngilislərin Cənubi Qafqaza siyasəti Böyük Britaniyanın bu bölgədə total nəzarətinin bərqərar olmasına, uzunmüddətli nüfuzunun saxlanılmasına yönəlmişdi. Həmin siyasətin digər bir məqsədi Rusiyada sovet hakimiyyətinin devrilməsi, əski Rusiya imperiyası ərazisinin parçalanması, qeyri-rus qüvvələrinə hərtərəfli, o cümlədən hərbi yardım göstərilməsi idi. 1918-ci ilin may ayının sonlarında keçmiş Rusiya imperiyasının cənubunda yaranmış milli dövlətlərə münasibətdə Böyük Britaniyanın siyasəti məhz bu məqsədlərə xidmət edirdi.

1918-ci ilin may ayında üç Cənubi Qafqaz dövlətinin yaranmasından dərhal sonra onların sərhədlərinin müəyyənləşdirilməsinə, təsbit olunmasına başlandı. Yeni, müstəqil respublikaların bəzən əfsanəvi məlumatlara, rəvayətlərə əsaslanan («Böyük Ermənistan» xülyası və yaxud orta əsr gürcü knyazlıqlarının hüdudları ideyası),

dövlət sərhədlərini bu «əsaslandırmalara» görə təsbit etmək cəhdləri qarşı tərəfin bu və ya digər əraziyə malik olmaya dair iddiaları ilə üzləşirdi. Müxtəlif xalqların əsrlər boyunca təşəkkül tapdığı, məskunlaşdığı Cənubi Qafqazda həmin sərhədləri danışıqlar yolu ilə müəyyənləşdirmək cəhdləri uğursuzluğa düçar oldu. Həmin respublikalar arasındaki sərhədləri yalnız zorakı vasitələrlə təsbit etmək yolu qalırdı. Bir çox hallarda məhz bu yola üstünlük verilirdi. Nəticədə siyasi münaqişələr qızışır, artıb siyasi toqquşmalara, bəzən isə çoxsaylı insan tələfatına gətirib çıxaran müharibələrə çevrilirdi. 1918-1920-ci illərdə məhz bu cür münaqişələr Cənubi Qafqazın siyasi tarixinin başlıca məzmununu təşkil edirdi.

Üç Cənubi Qafqaz dövləti arasında ərazi ixtilafları bölgənin Böyük Britaniyanın işğalçı hakimiyyət orqanlarının müxtəlif ərazilərinə «çəkişən tərəfləri sakitləşdirmək» məqsədilə qoşunlar göndərməsinə əlverişli şərait yaratmışdı. Cənubi Qafqazda asayişin təmin olunması qayğısına qalan dövlət rolunu öz üzərinə götürmüş Böyük Britaniya bölgədə meydana çıxmış təqribən bütün münaqişələrin həllində iştirak etmişdi. Münaqişədə iştirak edən tərəflərdən hansını dəstəkləmək haqqında qərarı Böyük Britaniya işğal qoşunlarının Tiflisdəki qərargahı, ayrı-ayrı hallarda isə İstanbuldakı «Qara dəniz Ordusu»nun baş komandanı verirdi. Generallar Q.Forestye-Uoker, V.Tomson və N.Kori Cənubi Qafqazda Böyük Britaniya qoşunları qrupunun komandanları olmuşlar. İngiltərə hökuməti qoşunlarını çıxardıqdan sonra mənzil-

qərargahı Tiflisdə yerləşən Cənubi Qafqaz üçün Ali komissar postunu təsis etdi. General O.Uordrop ilk Ali komissar təyin olundu.

Böyük Britaniya komandanlığının münaqişə tərəflərindən bu və ya digərinə hansı meyarlar, siyasi mülahizələr üzündən dəstək göstərməsi və yaxud bitərəf mövqe tutması haqqında məsələnin xüsusi araşdırılmasına ehtiyac var. Lakin Böyük Britaniya komandanlığı bütün hallarda öz dövlətinin siyasi, iqtisadi, geosiyasi və digər mənafelərinə üstünlük verirdi.

Cənubi Qafqazda ilk erməni dövləti (1918-ci ilin may ayının sonlarında Ararat Respublikası) meydana çıxdıqdan sonra onun hökuməti qonşu Osmanlı dövlətinin, Azərbaycan Cümhuriyyətinin və Gürcüstan Respublikasının əraziləri hesabına «Böyük Ermənistan» yaradılması planlarını gerçəkləşdirməyə can atırdı. Ona görə də ekspansionist səciyyəli «torpaqların cəmləşdirilməsi» xəttini 1918-1920-ci illərdə Ermənistanın daşnak hökumətinin siyasətinin başlıca məzmunu kimi qiymətləndirmək olar. Ermənistan rəhbərliyi Cənubi Qafqazda heç bir zaman mövcud olmamış «erməni dövləti» nəzərdə tutulan sərhədləri daxilinə «qaytarılacaq» torpaqlar dairəsinə Azərbaycan Respublikasının ayrılmaz parçası kimi təsbit olunmuş Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrini, Gürcüstan Respublikasının da idddia etdiyi Borçalı, Axalsıq və Axalkələk ərazilərini də daxil etmişdi.

Daşnak rəhbərliyi ilk növbədə də Böyük Britaniyanın və ABŞ-ın yardımına arxalanmaqla «Böyük Er-

mənistan» yaratmaq siyasətində uğur qazanmağa ümid bəsləyirdi. Bu zaman Ermənistan rəhbərliyi İngiltərədən birbaşa hərbi dəstək və siyasi müstəqilliyin tanınmasını, ABŞ-dan isə maliyyə yardımını və ölkənin idarəçiliyinə dair mandatın öz üzərinə götürməsini gözləyirdi. Lakin tezliklə ermənilər məyus oldular. Məlum oldu ki, Böyük Britaniya siyasətinin məqsədləri anlaşılmazdır, həm Ermənistana, həm də onun siyasi rəqiblərinə yardım göstərmək isə İngilislərin maraqlarına uyğun deyil.

Tezliklə Böyük Britaniyanın rəsmi dairələri Ermənistan rəhbərliyinin planlarının tamamilə ağlasığmaz olduğunu etiraf etməli oldular. Məsələn, Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin siyasi kəşfiyyat şöbəsi tərəfindən hazırlanmış 28 oktyabr 1918-ci il tarixli Memorandumda göstərilirdi: «Erməni məsələsi həll olunarkən nəzərə alınmalıdır ki, onun cazibə mərkəzi Qafqazda deyil, Kiçik Asiyanın cənubundadır. Ermənilər Türkiyədən Qafqaza əsasən qaçqın kimi, son onilliklər ərzində Rusiya hakimiyyəti dövründə gəlmişlər. Rusiya hökuməti burada onlardan gürcülər və tatarlar (Azərbaycan türkləri –N.G.) arasında ixtilafları qızışdırmaq üçün istifadə etmişdir».[9]

Ermənistanın nizamlı silahlı qüvvələri Zəngəzura, Naxçıvana və Qarabağa Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü genişləndirdilər.

Böyük Britaniya rəhbərliyi Ermənistanın Azərbay-

---

[9] Memorandum by Foreign Office Intelligence Department (October 28, 1918) //Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.110.

can Respublikasına qarşı hərbi təcavüzü gedişində vəziyyəti sabitləşdirmək üçün münaqişəyə qarışmalı oldu. Məsələn, 1919-cu ilin yanvar ayının əvvəlində Naxçıvanda baş vermiş hadisələr zamanı vəziyyətə nəzarət etmək üçün Britaniya zabitini, Şotland alayının 2-ci batalyonunun kapitanını Britaniya piyada bölüyü ilə oraya göndərmək zərurəti yarandı. [10] Vəziyyət o dərəcədə böhranlı idi ki, şahzadə Əla-üs-səltənə Naxçıvan ərazisində dinc müsəlman əhalisinin məhv edilməsi və erməni silahlı qüvvələri tərəfindən törədilmiş vəhşiliklərlə bağlı olaraq Qacar hökumətinin Britaniya komandanlığına rəsmi etirazını bildirmişdi.[11] Həmin etiraz memorandumunda göstərilirdi ki, çıxılmaz vəziyyətə düşmüş Naxçıvan əhalisi yardım üçün İrana müraciət etmiş və ondan himayə olunmasını xahiş etmişdir. Sənəddə daha sonra qeyd edilir ki, «ermənilərin əhalinin əksəriyyətini müsəlmanların təşkil etdiyi bu vilayətlərə təcavüzü baş verə biləcək məhvedici nəticələr üzündən böyük həyəcan doğurur».[12] P.Koks General-mayor Koks*, Lord Kerzona** göndərdiyi məlumatda qeyd edirdi: «Mən İran hökumə-

---

[10] Ətraflı məlumat üçün bax: Азербайджанская Демократическая Республика (1918 - 1920).

[11] Memorandum from Persian Government (January 25, 1919); Letter from Foreign Office to Prince Ala-es-Sultaneh (January 27, 1919).

[12] İran hökumətinin memarandumu (25 yanvar, 1919).

* General-mayor Koks, ser Persi Zaxariya Böyük Britaniyanı 1918-1920-ci illərdə İranda təmsil edən diplomat idi.

** Lord Corc Kerzon 1919-cu ildən 1923-cü ilədək Böyük Britaniyanın xarici işlər naziri olmuşdur.

tindən aldığım və erməniləri İrəvanda, Naxçıvanda və Qarsda müsəlmanlara qarşı vəhşiliklər törətməkdə ittiham edən memorandumun tərcüməsini məlumatıma əlavə etməyi və bu iğtişaşlara son verilməsi üçün müttəfiq hökumətlərin üzərinə məsuliyyət qoymağı özümə şərəf bilirəm». [13] İranın Xarici İşlər Nazirliyinin 1919-cu ilin oktyabr ayının 21-də Böyük Britaniyanın diplomatik missiyasına göndərdiyi rəsmi məlumatında göstərilirdi: «Şübhə yoxdur ki, Britaniyanın diplomatik missiyasının İrəvanda, Naxçıvanda, Qarsda və Ermənistanın bütün sərhədi boyunca bu yaxınlarda baş vermiş hadisələr, ermənilərin bu bölgələrin müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklər, kütləvi qətllər və qarətlər haqqında məlumatı var. Xarici İşlər Nazirliyi belə bir məlumat da almışdır ki, ermənilər həmin bölgələrdə milliyyətindən asılı olmayaraq bütün müsəlmanlara qarşı zorakılıq əməlini törətmək fürsətinin birini də əldən verməmişlər. Müsəlman ailələri məhv edilmiş, heç bir günahı olmayan kişilər və uşaqlar öldürülmüş, qadınlar cinsi təcavüzə məruz qalmış, onların bütün əmlakı qarət edilmişdir. Dinc əhalisi erməniləri əsla təhrik etməmiş bir çox kəndlər məhv edilmişdir.... Böyük Dövlətlərin millətlərin azadlığına və dini inanclarından asılı olmayaraq münasibətdə niyyətlərindən xəbəri olan Xarici İşlər Nazirliyi bu məlumatı rəsmən diqqətinizə çatdırır və xahiş edir ki, ermənilərin bu cinayətkar əməllərinin qarşısını almaq və Ermənistanla sərhəddə yaşayan dinc əhalinin həyatını

[13] Ser P. Koksun məlumatı (Tehran 25 oktyabr 1919).

müdafiə etmək Britaniya hökumətinin məmurlarına tapşırılsın. Onlar həm Böyük Dövlətlərin təmsilçiləri, həm də erməni vəhşiliyinin şahidləri kimi bu cinayətkar əməllərin qarşısının alınması və müqəssirlərin cəzalandırılması üçün tədbirlər görməlidilər».[14]

1918-ci ilin dekabr ayında Qarabağ bölgəsində Ermənistanın hərbi təcavüzü ilə bağlı olaraq Şuşaya Uorçester alayı podpolkovnik Hibbonun komandanlığı altında kiçik eskortun müşayiəti ilə Böyük Britaniya hərbi missiyasının göndərilməsi zərurəti meydana çıxdı. İngilis komandanlığının rəsmi mövqeyi sanki Azərbaycan tərəfinin dəstəklənməsinə, erməni təcavüzünün pislənilməsinə, bölgədə sülhün bərqərar edilməsinə yönəlmişdi. General V.Tomsonun təşəbbüsü ilə Qarabağa qarışıq ingilis-erməni-müsəlman nümayəndə heyəti göndərilmiş, erməni hərbi dəstələrinin başçılarına onları müsəlman əhalisinə qarşı təcavüzkar hərəkətlərdən çəkindirən teleqramlar göndərilmişdi. V.Tomsonun imzası ilə analoji məzmunlu məktub Andronikə də təqdim olunmuşdu. Məsələn, Andronik 19 noyabr 1918-ci il tarixli, 640 saylı əmri ilə öz tabeliyində olanları xəbərdar edirdi: «Müttəfiqlərin təmsilçilərinin mənə çatdırdıqları məktubda deyilir ki, bundan sonra hər cür düşmən əməlləri (müsəlmanlara qarşı – N.G.) erməni məsələsinin həll olunmasına mənfi təsir göstərə bilər».[15]

[14] İranın xarici işlər nazirliyindən məktub. Ermənilər tərəfindən törədilən kütləvi müsəlman qırğınları (Tehran 21 oktyabr 1919).

[15] Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века, ст.48.

Qeyd edək ki, hələ 1918-ci ilin yayında başda Andronik olmaqla qeyri-nizami erməni hərbi dəstəsi Zəngəzurun Azərbaycan türklərindən ibarət olan əhalisinin məhv edilməsi və həmin ərazidən qovulması üzrə məqsədyönlü fəaliyyətə başlamışdı. AXC hökumətinin təşkil etdiyi Fövqəladə istintaq komissiyasının üzvü olmuş N. Mixaylovun məlumatlarına görə, yalnız 1918-ci ilin yayında və payızında Zəngəzurda 115 kənd (əslində Azərbaycan türklərinin yaşadığı bütün yaşayış məntəqələri – N.G.) məhv edilmişdı. Tam olmayan məlumatlara görə, həmin kəndlərdə 7729 azərbaycanlı öldürülmüş, 50000 Azərbaycan türkü Zəngəzur hüdudlarını tərk etməli olmuşdu. [16]

1919-cu ilin yanvar ayının ortalarında Qarabağda və Zəngəzurda Ermənistan-Azərbaycan ərazi münaqişəsini həll etmək üçün ingilis komandanlığı burada doktor Xosrov bəy Sultanov başda olmaqla xüsusi general-qubernatorluq yaratmaq, bu yolla ixtilaf bölgəsini ərazi cəhətdən əlahiddələşdirmək modelini seçdi. İngilislər bölgə üzərində nəzarəti general-qubernatorluğa həlledici səs hüququ ilə daxil olmuş hərbi nümayəndəsi vasitəsilə həyata keçirirdilər. Lakin bu idarəçilik tətbiq olunduqdan sonra da Qarabağdan həyəcanlı xəbərlər alınmaqda idi. Salonikidəki Böyük Britaniya qoşunlarının baş komandanı, general C.F.Miln 1919-cu ilin fevral ayının 6-da Londona, imperiya Baş Qərargahının rəhbərinə göndərdiyi məlumatında

---

[16] Мамедов И.М., Мусаев Т.Ф.Армяно-азербайджанский конфликт: История. Право. Посредничество. с. 32-33.

göstərmişdi: «Bakını işğal etdiyimiz zaman Şuşanın iki Türkiyə batalyonu Andronikin erməni ordusunun hücumlarından müdafiə edirdi. Hal-hazırda ermənilər şəhərə doluşmuşlar. Hökumətin asayişi qorumaq üçün mümkün olan hər tədbiri görməsinə baxmayaraq, ermənilər tatarları (Azərbaycan türklərini – N.G.) öldürməkdədirlər. Təbiidir ki, tatarlar da qisas alırlar. Asayişin qorunması üçün oraya Britaniya əsgərlərinin bir bölüyünün göndərilməsi zəruridir. Lakin təhlükəsizliyin təmin edilməsi üçün batalyonun göndərilməsi daha yaxşı olardı».[17]

Böyük Britaniya Kəşfiyyat Bürosunun 10 aprel 1919-cu il tarixli həftəlik məlumatında qeyd edilirdi: «Ermənilərin münasibəti üzündən Şuşa əyalətində vəziyyət qeyri-qənaətbəxşdir. Ermənilər yerli tatar (Azərbaycan – N.G.) inzibati idarəçiliyinə maneə yaradır və güman edirlər ki, tatar general-qubernatoru Sultanov Türkiyə agentidir. Ermənistan hökuməti xəbərdar edilmişdir ki, bu cür əngəllərlə heç bir yaxşı nəticə əldə olunmayacaq. O da qeyd olunmuşdur ki, həm Sultanov, həm də Azərbaycan hökuməti Şuşa əyalətindəki vəziyyətə görə Böyük Britaniya qarşısında məsuliyyət daşıyır».[18]

Lakin İngiltərə komandanlığının gördüyü tədbirlər səmərəsiz idi, yalnız erməni quldur dəstələrinin azğın-

[17] Decipher by General G. Milne (February 6, 1919) //Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.236.

[18] Intelligence Weekly report, Constantinople (week ending April 10, 1919) //Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.390.

lıqlarını müvəqqəti olaraq dayandırmışdı. 1919-cu ilin iyun ayının sonunda Böyük Britaniya qoşunları Şuşanı tərk etdilər. Böyük Britaniyanın nümayəndəsi isə Şuşada avqust ayının sonlarına kimi qaldı.

Böyük Britaniya hökumətinin Cənubi Qafqaza xüsusi olaraq ezam etdiyi Britaniya missiyası təmsilçilərinin sonrakı məlumatlarında qeyd edilirdi ki, erməni silahlı qüvvələri heç bir iyrənc əməldən çəkinmir, Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının dinc azərbaycanlı əhalisinin məhv edilməsi üçün ən əcaib üsullardan istifadə edirdilər. Qafqazdakı Böyük Britaniya Ali komissarı ser Oliver Uordropun öz hökumətinə göndərdiyi məlumatlar bu cür faktlarla zəngindir. Onun 1919-cu ilin oktyabr ayının 2-də Londona göndərdiyi raportunda deyilirdi: «Bu yaxınlarda ermənilər Yeni Bəyazid, Aleksandropol və İrəvan bölgələrində 60 müsəlman kəndini dağıtmışlar». [19]

O.Uordropun 11 dekabr 1919-cu il tarixli məlumatında göstərilirdi ki, «Qarabağdakı komandanın məlumatlarına görə, dekabr ayının 1-də nizami erməni qoşunları iki topla və 6 pulemyotla Kığı dərəsində (Kigy Pass) 9 tatar kəndinə basqın etmiş, onları yandırmış və qarət etmişdir. Noyabr ayının 26-da ermənilər Oxçu bölgəsindəki bütün dinc müsəlmanları topladılar, hərbi yaşda olan kişiləri dinamitlə partlatdılar, qadınlar və uşaqlar da daxil olmaqla qalan əhalini isə məsciddə qətlə yetirdilər. Zəngəzur müsəlmanları vahimə içərisindədirlər».[20]

---

[19] Decipher from Mr. O. Wardrop (October 2, 1919)// Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.265.

[20] Cənab O. Uordropun 196 saylı məlumatı (11 dekabr, 1919).

O.Uordrop bu məlumatına əlavə olaraq, AXC baş naziri lord Kerzona 16 noyabr 1919-cu il tarixli məktubunu da göndərmişdi. Həmin məktubda deyilirdi: «Zəngəzur Azərbaycan Respublikasının ayrılmaz hissəsidir və nəinki bizim tərəfimizdən, Müttəfiq Britaniya Komandanlığı tərəfindən də həmişə bu cür nəzərdən keçirilmişdir. Sülh konfransının Ali komissarı polkovnik Haskell də bizim Zəngəzur vilayətinə mübahisəsiz hüququmuzu tanımışlar».[21]

Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri Ermənistanın xarici işlər nazirinin notasına cavab olaraq özünün Ermənistandakı diplomatik nümayəndəsi Ə.Haqverdiyev vasitəsilə qeyd edirdi: «Ermənistan Respublikasının xarici işlər nazirinin nəzərinə çatdırın ki, Zəngəzur Azərbaycan Respublikasının ayrılmaz hissəsidir və erməni hökumətinin bununla bağlı olaraq notasında qaldırdığı məsələ Azərbaycan Cümhuriyyətinin daxili işlərinə müdaxilə deməkdir. Azərbaycan Cümhuriyyəti hökuməti özünü ölkənin müxtəlif bölgələrində hakimiyyət qurumlarının həyata keçirdiyi tədbirlər haqqında erməni hökuməti qarşısında hesabat verməyə borclu hesab etmir».[22]

3 dekabr 1919-cu il tarixli məlumatında O.Uordrop göstərirdi: «Nəticədə baş nazir Usubbəyov ermənilərin 23 noyabr sazişinin ziddinə olaraq hərbi əməliyyatları davam etdirmələri ilə bağlı olaraq narazılığını bildirdi və 9 kəndin məhv edildiyinə dair məlumat verdi.[23]

[21] Teleqram Cənab O. Uordropun «açıq mətnlə» teleqramı (18 noyabr, 1919).
[22] Cənab O. Uordropun 46 saylı məlumatı (8 oktyabr, 1919).
[23] Cənab O. Uordropun 173 saylı məlumatı (3 dekabr, 1919).

Onun ertəsi gün göndərdiyi məlumatında qeyd olunurdu: «Azərbaycan hökuməti bu yaxınlarda müsəlmanların erməni nizami hərbi dəstələri tərəfindən törədilmiş kütləvi qətlləri və 15 kəndin məhv edilməsi haqqında məlumatları Zəngəzur və Dərələyəzdən mənə çatdırmışdır. Mən İrəvana etiraz göndərərək dərhal təhqiqata başlamağı, müqəssirləri cəzalandırmağı və erməni nümayəndə heyətinin təcili olaraq azərbaycanlılar görüşə göndərilməsini tələb etdim».[24]

Uordropun 15 dekabr 1919-cu il tarixli məlumatında deyilirdi: «Azərbaycanın baş naziri teleqram göndərərək erməni nizami topçu qoşunlarını ittiham edirdi. Ermənilər Zəngəzurun kəndlərini məhv etmiş qırğın törətmişdilər. O, qeyd edir ki, dekabr ayının 9-da Görusdan cənub-şərqdə Kədəkləkli, Əsgərli və Pərçəvan (Kedeclaklu, Askerlu and Perchevan) kəndləri məhv edildi və mühasirəyə alınmış Oxçu ilə Kığı dərələrindəki (Ohchi and Kigy Glens) müsəlman kəndləri artilleriya atəşi ilə dağıdıldı. O, Azərbaycanın Zəngəzurda bircə əsgərinin də olmadığını bildirdi. Zati-aliləri Zəngəzurdakı erməniləri tərk-silah etmək üçün bitərəf ölkələrdən zabitlər göndərməyi xahiş edir. Əks təqdirdə Azərbaycan mehriban qonşuluğu təmin etmək üçün, tədbirlər görmək məcburiyyəti qarşısında qalacaq».[25]

O.Uordropun 30 dekabr 1919-cu il tarixli məlumatında göstərilirdi: «Bu gün alınmış məlumatlara görə,

[24] Cənab O. Uordropun 179 saylı məlumatı (4 dekabr, 1919).
[25] Cənab O. Uordropun 202 saylı məlumatı (15 dekabr, 1919).

erməni hökuməti dekabr ayının 21-də Zəngibasar bölgəsinin müsəlmanlarına qarşı hərbi əməliyyatlara başlamışdır. Həmin gün Qarğabazar, dekabr ayının 22-də isə Uluxanlı kəndləri dağıdılmışdır. Hal-hazırda Çobankər Qaraqışlaq kəndi uğrunda döyüş gedir. Əgər bu məlumatlar doğrudursa, Ermənistanın 23 noyabr sazişini pozduğu şübhəsizdir».[26]

Digər ingilis nümayəndəsi Qrandinin 25 yanvar 1920-ci tarixli məlumatında göstərilirdi: «Azərbaycan hökuməti erməni topçu dəstəsi tərəfindən Zəngəzurda daha 24 kəndin məhv edilməsi və kütləvi qırğınlar törətməsi haqqında məlumat verir. Azərbaycanda ictimai fikir çox, həyəcanlıdır və Müttəfiqlərin fəaliyyətsizliyinə görə hökuməti ittiham edir».[27]

O.Uordropun 28 yanvar 1920-ci il tarixli məlumatında qeyd olunurdu: «Zəngəzurda erməni təcavüzü haqqında məlumatlar daxil olmaqdadır. Bu isə əhalinin Azərbaycan hökumətindən narazılığını gücləndirir. Əhali hökumətdən təcili tədbirlər görülməsini tələb edir».[28]

O.Uordropun məlumatlarında Qars vilayətinin müsəlman əhalisinin faciəli vəziyyəti haqqında məlumatlar da vardır. Həmin məlumatlardan bəlli olur ki, ingilislər Cənub-Qərbi Qafqaz Respublikasını ləğv etdikdən sonra, 1919-cu ilin may ayında Qars vilayətində hakimiyyəti Ermənistan rəhbərliyinə vermişdilər. O.Uordropun

[26] Cənab O. Uordropun «açıq mətnlə» teleqramı (30 dekabr, 1919).
[27] Cənab Qrandinin 50 saylı məlumatı (25 yanvar, 1920).
[28] Cənab O. Uordropun 52 saylı məlumatı (28 yanvar, 1920).

28 yanvar 1920-ci il tarixli məlumatında qeyd edilirdi: «Burada olan Azərbaycan nümayəndələri mart ayının 5-də öz hökumətləri ilə əlaqə saxlayaraq bildirmişdilər ki, erməni hakimiyyət orqanları Çıldır, Zaruşat, Şunalal (Shuuunal el) (söz buraxılmışdır - N.G.) bölgələrindən olan müsəlmanlara öz kəndlərini tərk etməyi əmr etmişdilər. Həmçinin (söz buraxılmışdır - N.G.) mart ayının 1-də əhali tərksilah olunmaq haqqında ultimatum almışdır. Mühasirəyə alınmış kəndlər isə dağıdılmışdır. O, xahiş edirdi ki, qaçqınların Azərbaycana getmələrinin təmin edilməsi haqqında ərz-halları qəbul edilsin».[29]

Böyük Britaniya diplomatik missiyasının 1919-cu ilin dekabr ayından 1920-ci ilin mart ayınadək olan dövrünün yalnız bu məlumatları əsasında belə bir nəticəyə gəlmək mümkündür ki, dörd ay ərzində Zəngəzurda, Naxçıvanda və Qarabağda təqribən 69 kənd dağıdılmış, onların bütün dinc sakinləri isə məhv edilmişdi. Əgər hər kənddə orta hesabla beş üzvü olan 25 ailənin yaşadığını ehtimal etsək, hər bir kənddə 125 sakinin olduğunu ehtimal etmək olar. Deməli, bu hesabla 69 kəndin əhalisi cəmi 8625 nəfərdən artıq olmuşdur. Bir neçə sənədin natamam məlumatları əsasında alınmış bu bilgilər Azərbaycan xalqının Zəngəzurda, Naxçıvanda və Qarabağda üzləşdiyi fəlakətin və müsibətin mənzərəsini bərpa etməyə, bölgədə əhalinin əksəriyyətini təşkil edən Azərbaycan türklərinin soyqırımının miqyasını təsəvvür etməyə imkan verir. Böyük Britaniya sənədlərindən də məlum

[29] Cənab O. Uordropun məlumatı (11 mart, 1920).

olur ki, silahsız, dinc sakinlər erməni hərbi dəstələri tərəfindən ardıcıl şəkildə, amansızcasına məhv edilirdi. Dörd ay ərzində bu yolla 8625 nəfərdən çox dinc sakin qətlə yetirilmiş, 69 yaşayış məntəqəsi yer üzündən silinmişdir. Tarixi vətənlərini tərk etməyə məcbur olmuş qaçqınların sayını isə yalnız təxmin edə bilərik!

Beləliklə, Ermənistan (Ararat) Respublikasının Cənubi Qafqazın müsəlman əhalisinin məqsədli, ardıcıl soyqırımına yönəlmiş təcavüzkar siyasəti nəzərdən keçirdiyimiz dövrün çox saylı Böyük Britaniya arxiv sənədlərində öz əksini tapmışdır.

Bu dövrün sənədləri ingilis komandanlığının Cənubi Qafqazda ərazi ixtilaflarının, o cümlədən erməni-Azərbaycan münaqişəsinin həlli məsələsinə mövqeyinin qeyri-ardıcıl olduğunu əyani şəkildə təsdiq edir. İngilislər münaqişənin dinc üsullarla tənzimlənməsi prosesinə fəal surətdə qatılır, eyni zamanda Tehrandan Londona «əlahəzrətin Təbrizdəki konsulunun erməni nümayəndə heyətini qəbul etməsi» haqqında rəsmi məlumatlar göndərilirdi. Arxiv sənədləri təsdiq edir ki, erməni terrorçuları silahları, döyüş sursatını da Böyük Britaniya hökumətindən alırdılar. Bir sənəddə bildirilir ki, «Andronik türklərdən müdafiə üçün mayor Hibbondan aldığı bütün silah və artilleriyanı əhaliyə (erməni silahlı birləşmələrinə – N.G.) vermişdir».[30] .

Digər sənəddə isə göstərilirdi ki, «alyans (Antanta – N.G.) əvvəllər bu qoşunları (Andronikin silahlılarını –

[30] Cənab O. Uordropun teleqramı (17 dekabr, 1919) .

N.G.) maliyyələşdirdiyinə görə, qoşunlar buraxılana kimi Andronikə hər ay 200000 rubl ödəmək təklif olunur».[31]

Böyük Britaniya hakim dairələrində tədricən törətdikləri cinayətləri qonşuların üzərinə yıxmağa çalışan erməni təbliğatının yalançılığı haqqında möhkəm əminlik təşəkkül tapmağa başladı. Məsələn, Böyük Britaniya zabitləri belə hesab edirdilər ki, «Böyük Ermənistan haqqında bütün bu söhbətlər ekstremistlərin işinə yaramaqla milli hərəkatın atəşini körükləyir və kürdləri yenidən türklərin tərəfinə cəlb etməklə panislamizmin qüvvələrini möhkəmləndirir».[32]

Erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarında çoxsaylı vəhşilikləri haqqında məlumatlar almış Qrandi yazmışdı: «Erməni baş nazirinə teleqram göndərərək, hücumları dayandırılmağı və silahlı dəstələri çıxarmağı tələb etmişdir. Tələb yerinə yetirilməyəcəyi təqdirdə o, Əlahəzrət Hökumətinə Ermənistana yardım göstərməməyi tövsiyə edəcəyi ilə hədələyirdi». [33]

O.Uordrop qeyd edirdi: «Mənim İrəvana səfərimin başlıca məqsədi nizami qoşunları Zəngəzurdan çıxarmaq və günahkarları cəzalandırmaq üçün erməni baş nazirinə təzyiq göstərmək idi. Artıq Zati-alilərinə teleqram göndərmişəm ki, əgər erməni hökuməti təcavüzə son qoymasa, Əlahəzrət Hökumətinə onlara (ermənilərə- N.G.) yardım göstərməməyi tövsiyə edəcəyəm». [34]

---

[31] Extracts from Foreign Office Reports (February, 1919) //Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, p.217.

[32] Admiral Kaltorpun məlumatı (29 iyul, 1919).

[33] Cənab Qrandinin 50 saylı məlumatı (25 yanvar, 1920).

[34] Cənab O. Uordropun 52 saylı məlumatı (28 yanvar, 1920).

1920-ci ilin yanvar ayının 29-da Qrandinin göndərdiyi şifrəli teleqramda O. Uordropa aşağıdakı təlimatlar verilmişdi: «Siz Azərbaycan hökumətinin irəli sürdüyü ittihamları cox diqqətlə təhqiq etməlisiniz. Əgər xatırlatdığınız faktlara dair dəlillər tapılarsa, erməni hökumətinə ciddi xəbərdarlıq etməyiniz və hücumlara dərhal son qoyulmasını tələb etməyiniz lazım gələcək. Siz Azərbaycan hökumətini də məlumatlandırmalısınız ki, Ermənistan hökumətinə qəti etiraz göndərmək haqqında Əlahəzrət Hökuməti tərəfindən təlimatlandırılmışsınız».[35]

Yerində vəziyyətlə tanış olmuş Böyük Britaniya missiyası 1918-ci ilin mart hadisələrinə münasibətini də dəyişdirməli olmuşdu. O. Uordrop bu barədə yazırdı: «Erməni hökumətinə qaldıqda, qeyd edərdim ki, müsəlmanların ümumi rəyinə görə 1918-ci ildə Bakıdakı bolşevik qırğınları ermənilər tərəfindən təşkil olunmuşdu».[36]

Azərbaycan Xalq Cümhuriyyətinə bütövlükdə Cənubi Qafqazın taleyinə dair Böyük Britaniyanın dəqiq mövqeyi, planı yox idi. Bu isə müttəfiq dövlətlərin rəsmi dairələrində nifaqdan və dağınıqlıqdan xəbər verirdi. Buna görə də Böyük Britaniyanın planları və mövqeyi tez-tez dəyişirdi. U.Çörçillin etiraf edirdi ki, «aydın və müəyyən siyasətin yoxluğu müttəfiqlərin Qafqaz cəbhəsindəki sərhədyanı dövlətlərə münasibətində də özünü göstərmişdi... Bir çox başqa bölgələrdə olduğu kimi, burada da müttəfiq dövlətlərin siyasəti həmin dövlətlərin

---

[35] Cənab Qrandinin 54 saylı şifrəli teleqramı (29 yanvar, 1920).
[36] Cənab O. Uordropun məlumatı (1 aprel, 1920).

siyasi müstəqilliyini tanımaqla, nəzakətli etinasızlıq arasında tərəddüd edirdi».[37]

1920-ci ilin mart-iyul aylarında Qarabağda, xüsusilə Şuşada, Naxçıvanda, Ordubadda Ermənistan Respublikasının silahlı qüvvələri ilə toqquşmalar baş verdi. Döyüşlər Xankəndində, Tərtərdə, Əsgəranda, Zəngəzur, Cəbrayıl, Naxçıvan, Gəncə qəzalarında şiddətlənmişdi. Həmin döyüşlərin gedişində onlarla Azərbaycan kəndi dağıdılmışdı.

Böyük Britaniya arxivlərinin sənədlərində belə bir fakt da öz təsdiqini tapır ki, əsası hələ Rusiya imperiyası dövründə qoyulmuş ənənələrə sadiq qalmış bolşeviklər Şimali Azərbaycanın işğalına dair öz siyasətlərini həyata keçirərkən yenidən ermənilərdən yararlanmışdılar. O. Uordropun 1920-ci ilin aprel ayının 1-də, (Şimali Azərbaycanın sovet qoşunları tərəfindən işğalı ərəfəsində) göndərdiyi məlumat bu baxımdan çox maraqlıdır. Böyük Britaniya missiyasının nümayəndəsi öz hökumətinə bildirirdi: «Mənə bəllidir ki, hal-hazırda Petrovskda olan bolşevik qüvvələri əsasən ermənilərdən təşkil olunmuşdur».[38]

1920-ci ilin aprel ayının 28-də bütün beynəlxalq-hüquq normalarını pozaraq Şimali Azərbaycan ərazisinə soxulmuş, Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoymuş, xalqımıza qarşı zorakılıqlar törətmiş XI Qızıl Ordunun sıralarında erməni millətindən olan xeyli zabit və əsgər var idi.

[37] Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века, с.30.

[38] Cənab O. Uordropun məlumatı (1 aprel, 1920).

Ümumiyyətlə, Böyük Britaniyanın Qafqazdakı «hərbi iştirakı» haqqında məsələyə münasibəti 1918-ci və 1919-cu illərdə müxtəlif olmuş, bir çox amillərlə (Birinci dünya müharibəsi başa çatdıqdan sonra həmin bölgələrdə xeyli silahlı qüvvə saxlamaq imkanları, İngiltərənin özündə qeyri-sabit daxili-siyasi vəziyyət, Versal sülh konfransında danışıqların gedişi ilə) şərtlənmişdi. Lakin 1919-cu ilin yayında Batum bölgəsi istisna olunmaqla Böyük Britaniya qoşunlarının Cənubi Qafqazdan çıxarılması heç də qəti sayılmırdı. Çünki ingilis qoşunlarının böyük hissəsi qonşu ölkələrə (İrana və Türkiyəyə) geri çəkilmişdi. Qafqazı tərk etmək zərurətinin dönməzliyi Böyük Britaniya üçün yalnız 1920-ci ilin baharında, Qızıl Ordunun Xəzəryanı ərazilərdə qalibiyyətli yürüşü, Denikin ordusunun əsas qüvvələrinin darmadağın edilməsi, onun qalıqlarının Krım yarımadasına geri çəkilməsi ilə aydın oldu. Müttəfiqlərin Paris müşavirəsində Azərbaycanın, Ermənistanın və Gürcüstanın istiqlaliyyətinin tanınması haqqında aktların imzalanması da məhz həmin dövrə təsadüf edir. Bu sənədlərə Cənubi Qafqazda Böyük Britaniya nüfuzunun qorunub saxlanması imkanları kimi yanaşılırdı. Lakin o zaman Böyük Britaniyanın rəsmi dairələrinin planları həyata keçmədi.

# NƏTİCƏ

Böyük Britaniya arxivlərində aşkar etdiyimiz sənədlər göstərir ki, 1918-1920-ci illərdə Azərbaycan əhalisi ən ağır fəlakətləri və müsibətləri yaşamışdır. Böyük Britaniya arxivlərinin məlumatları sübut edir ki, Azərbaycan xalqının XX əsr tarixi, xüsusilə 1918-1920-ci illər tarixi təhriflərdən, saxtalaşdırmalardan azad olunmalı, yenidən araşdırılmalı və təbliğ edilməlidir.

Təqdim etdiyimiz kitabda toplanmış Böyük Britaniya arxivindən olan sənədlər Azərbaycan xalqına qarşı 1918-1920-ci illərdə silahlı erməni dəstələrinin Ermənistan Respublikasının dəstəyi ilə həyata keçirdikləri soyqırım əməllərinin sübut edilməsi üçün müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tarixi ədaləti bərpa etməyi və daşnak-hnçak ideologiyası ilə silahlanmış erməni terrorçularının Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımına siyasi qiymət verməyi tarixi borcun hökmü kimi qəbul edərək, 26 mart 1998-ci il tarixində imzaladığı «Azərbaycanlıların soyqırımı haqqında» fərmanla 31 martı Azərbaycanlıların soyqırımı günü elan etmişdir. 31 mart 1918-1920-ci illərdə erməni quldur dəstələri tərəfindən qətlə yetirilmiş günahsız qurbanların xatirə günüdür. Həmin dövrdə erməni silahlı quldur dəstələri tərəfindən həyata keçirilmiş soyqırımı nəticəsində on minlərlə azərbaycanlı öldürülmüşdür. Bu rəqəmlər insan təxəyyülünün məhsulu deyil. Bu faktları Azərbaycan Respublikasının müxtəlif dövlət

arxivlərində, bir çox digər dövlətlərin arxivlərində saxlanılan tarixi sənədlər təsdiq edir. Hal-hazırda Azərbaycan tarix elmi qarşısında duran ən vacib vəzifələrdən biri göstərilən xronoloji çərçivədə erməni millətçilərinin Azərbaycan xalqına qarşı cinayətlərinin kompleks şəkildə öyrənilməsindən və dünya ictimaiyyəti qarşısında erməni terrorunun ifşa edilməsindən ibarətdir.

Çox təəssüf ki, erməni quldur birləşmələrinin Azərbaycanda «etnik təmizləmə gerçəkləşdirməyə» şüurlu surətdə çalışdıqlarını sübut edən faktlara həm xalqımızın, həm də beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə yalnız indi, 90 il keçdikdən sonra cəhdlər göstərilməkdədir. Erməni daşnak rəhbərliyinin sərəncamları əsasında həyata keçirilmiş həmin əməlləri hüquqi baxımdan milli-etnik əlamətə görə soyqırım siyasətinin təzahürü kimi dəyərləndirmək olar.

Hal-hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi gedişində Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş erməni təcavüzkarları xalqımızı görünməmiş müsibətlərə düçar etmiş, bir milyondan artıq soydaşımız qaçqına, məcburi köçkünə çevrilmişdir. Erməni terrorçu əməllərinin qanlı «əsəri» 1992-ci ilin fevral ayında Qarabağda 7 min əhalisi olmuş bir şəhərdə – Xocalıda törədilmiş soyqırımıdır. Xocalı ələ keçirildikdən sonra iri-miqyaslı əməliyyatlar gedişində Rusiya xüsusi təyinatlı nizami hissələrinin iştirakı ilə erməni silahlı birləşmələri tərəfindən 1000 nəfərə yaxın Azərbaycan vətəndaşı vəhşicəsinə qətlə yetirilmişdir. İndi bu şəhər ermənilər tərəfindən işğal edilmiş ərazidədir və xərabalıqlara çevril-

mişdir. Bu ağlasığmaz vəhşilik Qarabağın azərbaycanlı əhalisinin gözünü qorxutmaq, onların bu bölgədə yaşama istəyini sarsıtmaq məqsədilə həyata keçirilmişdi. Həmin vəhşiliklər Qarabağ azərbaycanlılarının əsas mərkəzlərinin işğal edilməsi zamanı da davam etdirilmişdi. Məsələn, hal-hazırda Şuşa şəhərində onun Azərbaycana tarixi mənsubiyyətini təsdiq edən mədəniyyət abidələrinin hamısı məhv edilmiş, Ağdam şəhəri tamamilə dağıdılmış. Vaxtilə çiçəklənən bu Azərbaycan şəhərində salamat qalmış bircə bina yoxdur, onun küçələrini isə ot və kol-kos basmışdır. Ağdamı «xəyal-şəhər», bəzən isə «Qafqaz Xirosiması» adlandırırlar...

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində ölkədə ərazisinin 890 şəhərin, kəndin və qəsəbənin yerləşdiyi xeyli qismi işğal edilmiş, bir milyona yaxın insan qaçqına və ölkə daxilində məcburi köçkünə çevrilmişdir. Müharibə 20 min Azərbaycan Respublikası vətəndaşının həyatına son qoymuş, 50 min insan müxtəlif dərəcəli xəsarət almış, onlardan bir çoxu əlil olmuş, təqribən 5 min nəfər itkin düşmüşdür. İlkin hesablamalara görə, bu təcavüz nəticəsində Azərbaycan Respublikasına 60 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir. [39]

Yalan yalnız onun həqiqət kimi qəbul olunduğu zaman ərzində mövcud ola bilər. Ona görə də bütün ölkələrin alimləri tarixin obyektiv öyrənilməsinə çalışmalıdırlar. Biz «ermənilərin soyqırıma» məruz qaldığına

[39] Мамедов И.М., Мусаев Т.Ф.Армяно-азербайджанский конфликт: История. Право. Посредничество. с.40.

bütün dünyanı inandırmağa çalışan qonşu dövlətin tarixçilərindən və siyasi xadimlərindən fərqli olaraq, faktlara istinad edirik. İngilis zərb-məsəlində deyildiyi kimi, «faktlar inadkardı». Həqiqət axtarışı gedişində faktlardan yaxa qurtarmaq mümkün deyildir. Tədqiqat predmetinin obyektiv və elmi idrakına can atan hər bir tədqiqatçının yeganə yerüstü bələdçiləri və müşaviri yalnız faktlardır. Biz elm xadimlərini, xüsusilə Avropa və ABŞ alimlərini tarixi müstəqil və qərəzsiz araşdırmağa çağırırıq. Tarixçilərin vəzifəsi tarix elmində yalanlara, uydurmalara ehtimallara yol verməməkdir. Araşdırma gedişində biz soyqırım problemini obyektiv tədqiq etməyə hazır olan tarixçiləri əməkdaşlığa dəvət edirik.

Bu kiçik araşdırmanın sonunda 1918-ci ilin dekabr ayının 6-da «Azərbaycan» qəzetində dərc olunmuş və erməni terrorunun cəhənnəm məşəqqətlərindən keçmiş xalqın ruhunu ifadə edən sözlərə biz də qoşulmaq istərdik: «Biz, öz məqsədlərinə çatmaq üçün vasitələrdən o qədər də baş çıxarmayan siyasi düşmənlərimizə bənzəyə bilmərik və bunu istəmirik. Biz öz məqsədimizə doğru təmkinlə və soyuqqanlı şəkildə, haqlı olduğumuzu tam dərk edərək, təmiz vicdanla gedirik. Nəhayət əminik ki, bizimlə əlaqəsi olan xalqlara münasibətdə loyallığımız, səmimiliyimiz və hiyləgərlikdən uzaq olmağımız gözləri kin-küdurətin və eqoist şövqün təsirilə gerçəkliyə qapanmamış hər kəs tərəfindən etiraf ediləcək və dəyərləndiriləcək. Fakt göz önündədir. İstəyən, yoxlaya bilər». [40]

---

[40] Газета «Азербайджан», 6 декабря 1918 г.

# İstifadə olunmuş ədəbiyyat

1. Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920), Ankara. 2001.

2. Azerbaijan Democratic Republic. Great Britain's Archrivals Documents, Baku, 2008.

3. The Adventures of Dunsterforse. By: Dunsterville, L. C., London. 1920.

4. İslam İnformasiya Bürosunun məlumatı. Ermənilər tərəfindən törədilən kütləvi müsəlman qırğınları. (yanvar, 1918), IOR/L/P&S/11/158.

5. İran hökumətinin memarandumu (25 yanvar, 1919), IOR/L/P&S/11/147.

6. Böyük Britaniya XİN-nin şahzadə sultan alilərinə məktubu (27 yanvar, 1919), IOR/L/P&S/11/147.

7. Admiral Kaltorpun məlumatı (29 iyul, 1919), IOR/L/P&S/11/145

8. Cənab O. Uordropun »açıq mətnlə» teleqramı (18 noyabr, 1919), IOR/L/P&S/11/147.

9. Cənab O. Uordropun 46 saylı məlumatı (8 oktyabr, 1919), IOR/L/P&S/11/159.

10. Cənab O. Uordropun 8 oktyabr 1919-cu il tarixli 46 saylı məlumatına əlavə, IOR/L/P&S/11/159.

11. Ser P. Koksun məlumatı (Tehran 25 oktyabr 1919), IOR/L/P&S/11/160.

12. İranın xarici işlər nazirliyindən məktub. Ermənilər tərəfindən törədilən kütləvi müsəlman qırğınları (Tehran 21 oktyabr 1919), IOR/L/P&S/11/160.

13. Cənab O. Uordropun 173 saylı məlumatı (3 dekabr, 1919), IOR/L/P&S/11/161.

14. Cənab O. Uordropun 179 saylı məlumatı (4 dekabr, 1919), IOR/L/P&S/11/161.

15. Cənab O. Uordropun 196 saylı məlumatı (11 dekabr, 1919), IOR/L/P&S/11/161.

16. Cənab O. Uordropun 202 saylı məlumatı (15 dekabr, 1919), IOR/L/P&S/11/161.

17. Cənab O. Uordropun teleqramı (17 dekabr, 1919), IOR/L/P&S/11/166.

18. Cənab O. Uordropun »açıq mətnlə» teleqramı (30 dekabr, 1919), IOR/L/P&S/11/166.

19. Cənab Qrandinin 50 saylı məlumatı (25 yanvar, 1920), IOR/L/P&S/11/167.

20. Cənab O. Uordropun 52 saylı məlumatı (28 yanvar, 1920), IOR/L/P&S/11/168.

21. Cənab Qrandinin 54 saylı şifrəli teleqramı (29 yanvar, 1920).

22. Cənab O. Uordropun məlumatı (11 mart, 1920).

23. Cənab O. Uordropun məlumatı (1 aprel, 1920).

24. Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы). Баку. 1998.

25. Халилов А. Геноцид против мусульманского населения Закавказья в исторических источниках, Баку. 2000.

26. Газета «Азербайджан», 6 декабря 1918 г.

27. Гасанлы Дж. Мартовский погром в Баку и гено цид азербайджанцев//

28. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах, Составитель: д.и.н. Солмаз Рустамова-Тогиди, Баку. 2010

29. Март 1918 г. Баку. Азербайджанские погромы в документах, Составитель: д.и.н. Солмаз Рустамова-Тогиди, Баку. 2009

30. Маммадов И.М., Мусаев Т.Ф.Армяно-азербайджанский конфликт: История, Право, Посредничество, Баку. 2008.

31. Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века, Баку. 2008.